# Tibbi-Sosial Ekspert komissiyaları müasir tələblərə uyğun iş şəraiti ilə təmin edilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Tərtər və Bərdə rayonları üzrə 21 saylı Tibbi-Sosial Ekspert Komissiyası (TSEK) də yeni avadanlıqlarla təchiz edilmiş və müasir tələblərə uyğun iş şəraiti ilə təmin olunub. Yaradılmış şəraitlə tanış olan əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov ümumən ölkədə tibbi-sosial ekspertiza sisteminin müasir səviyyədə yenidən qurulması işlərinin uğurla aparıldığını diqqətə çatdırıb.



Nazirliyin ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, nazir qeyd edib ki, ilk növbədə bu sistemin tam elektronlaşdırılması üçün vacib tədbirlər görülür. Artıq ƏƏSMN-nin Mərkəzləşdirilmiş İnformasiya Sistemi üzərində tibbi-sosial ekspertiza və reabilitasiya alt sistemi fəaliyyət göstərir ki, əlillik müayinələrinin aparılması üçün müvafiq məlumatların, göndəriş formalarının bu sistem vasitəsilə elektron mübadiləsi təmin edilir. Eyni zamanda bütün əlillik müayinələrinin nəticələri sistemdəki elektron bazaya daxil edilir ki, aidiyyəti qurumların müvafiq məlumatları həmin bazadan elektron qaydada əldə etməsinə şərait yaranır. Bu proses əlillik təyinatında məmur-vətəndaş təmaslarının minimallaşmasına, şəffaflığın təminatına imkan verib.

Əlilliyin qiymətləndirilməsi meyarlarının təkmilləşdirilməsi yönündə islahat işlərindən danışan S.Müslümov bildirib ki, bu sahədə qabaqcıl dünya təcrübəsi öyrənilib, beynəlxalq ekspertlərlə müzakirələr aparılıb və əsas prinsip kimi qeyd olunan meyarların tibbi yanaşma ilə bərabər, sosial yanaşma modeli üzərində də müəyyən edilməsi nəzərdə tutulub. Belə yanaşma əlilliyin müəyyən edilməsi zamanı şəxsin potensial sosial reabilitasiya, o cümlədən əmək fəaliyyəti potensialının müəyyən olunmasına yönəlib ki, bu da həmin şəxsin cəmiyyətdə, eləcə də əmək bazarında aktiv iştirakdan kənarda qalmasının qarşısını alır. Bu işlərlə bərabər ötən ilin ortalarından TSEK-lərin maddi-texniki bazasının və əhaliyə xidmət şəraitinin yaxşılaşdırılması işlərinə başlanmış və qısa vaxtda 38 TSEK-dən artıq 21-i müasir iş şəraiti və avadanlıqlarla təmin edilib. Yaxın vaxtlarda bu işlər tam başa çatdırılacaq, digər komissiyalarda da müasir iş şəraiti yaradılacaq, onlar tibbi-sosial ekspertiza üçün müasir müayinə cihazları ilə təmin olunacaqlar.

Tədbir zamanı TSEK üçün yaradılmış yeni iş şəraiti, müayinə avadanlıqları, göstərilən tibbi-sosial ekspertiza xidməti, müvafiq göndərişlərin elektron şəkildə qəbul olunması prosesi nəzərdən keçirilib. S.Müslümov Komissiyanın kollektivinə əhaliyə xidmətin daim yüksək səviyyədə, şəffaflıq şəraitində həyata keçirilməsi, vətəndaşların müraciətinə diqqət və qayğı ilə yanaşılması, əlillik müayinəsi zamanı vətəndaşların reabilitasiya imkanlarına diqqətin artırılması, onların reabilitasiyasında bərpa-müalicə müəssisələri ilə qarşılıqlı və səmərəli fəaliyyətin qurulması və s. barədə tapşırıqlar verib.

**M.MUSTAFAYEV,**
**"Respublika".**



